**Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə ölkəmizdə davamlı sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir. Dinamik inkişaf, tərəqqi paytaxt Bakı ilə yanaşı, regionların da iqtisadi, sosial mənzərəsini xeyli dəyişmişdir.**

**Sosial-iqtisadi inkişafın sürətləndirilməsi nəticəsində bölgələrdə tikinti, abadlıq, quruculuq işləri geniş vüsət almış, yeni infrastruktur formalaşmış, əhalinin məşğulluq səviyyəsi və rifah halı yüksəlmişdir. Möhtərəm Prezidentimiz çıxışlarının birində bu barədə demişdir: "Bilirsiniz ki, mən bölgələrin inkişafına çox böyük diqqət göstərirəm. Bölgələrə səfərlərim də bu məqsədi daşıyır. İstəyirəm və bu, mənim siyasətimdir ki, Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu inkişaf etsin. Yaxşı yollar salınsın, elektrik xətləri, qaz, su xətləri çəkilsin, xəstəxanalar, məktəblər, infrastruktur obyektləri tikilsin. Azərbaycan belə, hərtərəfli inkişaf etməlidir."**

**Bu vacib və mühüm əhəmiyyətli strategiyanın həyata keçirilməsində, regionların inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üzrə) mühüm rol oynayır.**

**2004-cü ildən uğurla icra olunan bu proqramlar bölgələrdə köklü dəyişikliklər yaratmış, iqtisadi potensialın artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.**

**Uğurla həyata keçirilən ardıcıl, məqsədyönlü islahatlar ölkəmizin iqtisadi və hərbi qüdrətini daha da gücləndirmişdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanılmış, 30 ilə yaxın mənfur düşmənin işğal altında saxladığı torpaqlar azad edilmişdir.**

**Hazırda həmin ərazilərdə geniş tikinti, quruculuq işləri aparılır, zəruri infrastruktur yaradılır, əhalinin doğma torpaqlara qayıdışı üçün yeni, ən müasir layihələr həyata keçirilir.**

**İşğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının vahid proqram əsasında təmin edilməsi məqsədilə dövlətimizin başçısı cənab İlham Əliyev 7 iyul 2021-ci il tarixdə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalamışdır. Fərmana uyğun olaraq Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları tərkibində olmaqla yeni Qarabağ iqtisadi rayonu yaradılmışdır.**

**Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük ərazini tutan, bir vaxtlar Zəngəzur qəzasının tərkibində olmaları ilə ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqlara malik Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonuna daxil edilmişdir.**

**Azad edilmiş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası nəzərə alınaraq Gəncə-Qazax və Aran iqtisadi rayonları tərkibinə də yenidən baxılmış, respublika üzrə iqtisadi rayonların sayı 11-dən 14-ə çatdırılmışdır.**

**Bu yazıda söhbət açdığımız Lənkəran-Astara iqtisadi rayonu ölkə ərazisinin 7 faizini əhatə edir. İqtisadi rayona Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonları daxildir. Ölkənin cənub-şərqində yerləşir. Ərazisi Lənkəran ovalığı və Talış dağlarından ibarət iki hissəyə ayrılıb.**

**Region təbii sərvətlərinə görə digər iqtisadi rayonlardan fərqlənir. Dünyanın mövcud 11 iqlim qurşağından 7-si bu yerlərdən keçir. Rütubətli subtropik iqlimə malikdir. İqtisadiyyatın əsasını aqrar-sənaye kompleksi təşkil edir. Rütubətli subtropik iqlim, məhsuldar torpaqlar, su və kifayət qədər əmək ehtiyatları kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar yaradır.**

**"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası sahəsində Lənkəran-Astara iqtisadi rayonunda ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bölgəni əhatə edən şəhər, qəsəbə və kəndlərdə tikinti, abadlıq işləri geniş vüsət alır, sahibkarlara dövlət dəstəyi gücləndirilir, yeni iş yerləri yaradılır.**

# DÖVLƏT PROQRAMLARININ UĞURLU İCRASI REGİONLARIN DAVAMLI İNKİŞAFINA XİDMƏT EDİR

## Lənkəran

Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində son üç ildə Lənkəran rayonunda xeyli iş görülüb. İstehsal sahələrinin inkişafı rayon rəhbərliyinin diqqət mərkəzindədir.

Lənkəran şəhərində Qənnadı məhsulları fabriki ("Laran" MMC) tikilib istifadəyə verilmişdir. Təzə inşa olunan "Həyat" çörək zavodunda ən müasir avadanlıqlar quraşdırılıb. "Gilan Lənkəran Konserv" zavodunda aylıq istehsal gücü 1500 ton olan yeni tomat dolum xətti qurulub. Zavodda ketçup, "Lənkəran Konserv" ASC-də tomat və leço istehsalı üçün yeni avadanlıqlar quraşdırılıb.

Ötən dövr ərzində Osaküçə kəndində "Beta" şirkəti, İstisu qəsəbəsində "Yaşıl çay" fermer təsərrüfatı, Haftoni qəsəbəsində, Vilvan və Xanbulan kəndlərində fermer və ailə təsərrüfatları tərəfindən yeni çay plantasiyaları salınıb. "Beta" şirkəti tingçilik təsərrüfatı yaratmışdır. Keçən il 12,5 hektar sahədə yeni çay plantasiyaları salınmışdır. Hazırda rayonda 571,8 hektar çay plantasiyası vardır. İl ərzində 317,2 ton yaşıl çay yarpağı tədarük edilmişdir.

Rayonda sitrus, subtropik və meyvə bağlarının salınması istiqamətində müvafiq tədbirlər görülmüş, fermer və sahibkarlara məxsus meyvə bağlarının sahəsi 1968,8 hektara çatdırılmışdır. Bağlardan 19591,4 ton məhsul yığılmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq 2019-cu ildə 55 kilometrlik Lənkəran-Lerik və 7 kilometrlik Hirkan-Mamusta-Siyavar avtomobil yollarının tikintisi başa çatdırılmışdır. Lənkəran və Liman şəhərlərinin daxili yollarının, Haftoni-Ləj kəndarası yolun 25023 kvadratmetr hissəsinə isti asfalt döşənmişdir. Uzunluğu 38,6 kilometr olan Səpnəkəran-Şürük-Sütəmurdov-Velədi-Gərmətük-Bala, Şürük-Kosalar-Kərgəlan-Lüvəsər-Bəlləbur-Qurumba kəndlərarası avtomobil yolunda əsaslı təmir işləri başa çatdırılmışdır.

İstehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması məqsədilə rayonun ərazisində 91478 metr SİP kabel xətti çəkilmiş, 8394 ədəd SMART kart tipli sayğac və 68 ədəd yeni transformator yarımstansiyası quraşdırılmışdır.

Ümumilikdə rayonun ərazisində 30896 metr yeni qaz xətləri çəkilmiş, 445 ədəd smart tipli sayğac istismara qəbul edilmiş, istismar müddəti bitmiş 10523 ədəd məişət qaz sayğacı yenisi ilə əvəz edilmişdir.

Lənkəran rayonunda məcburi köçkünlər üçün tikilmiş beşmərtəbəli, 45 mənzilli yaşayış binası şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə verilmişdir. Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli sərəncamına əsasən Lənkəran şəhərində qəzalı vəziyyətdə olan 5 çoxmənzilli yaşayış binasının 4-də bərpa-gücləndirmə və əsaslı təmir işləri aparılmış, tam qəzalı vəziyyətdə olan çoxmənzilli bina sökülərək yenidən tikilmişdir.

Azərbaycan Prezidentinin 22 oktyabr 2019-cu il tarixli Sərəncamı ilə 90 çoxmənzilli yaşayış binasının dam örtüyü dəyişdirilmiş, Lənkəran şəhərinin büdcə vəsaiti hesabına 8 çoxmənzilli yaşayış binasının dam örtüyü təmir olunmuşdur.

Ölkə başçısının tapşırıqlarına uyğun olaraq keçən il 15 saylı Ərazi Məşğulluq Mərkəzi filialı tərəfindən 2167 nəfər işlə təmin edilmiş, 1138 nəfər haqqı ödənilən ictimai işlərə, 1029 nəfər isə digər işlərə cəlb edilmişdir.

Əlillərin regional bərpa mərkəzində əsaslı təmir, "Lənkəran Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsin inzibati binasında, Rayonlararası Onkoloji xəstəxanada, ağ ciyər xəstəlikləri dispanserində və uşaq poliklinikasında yenidənqurma və cari təmir işləri aparılmışdır.

Son illər Lənkəran Dövlət Universitetinin yeni tədris korpusu, yataqxana binası və əlavə dördmərtəbəli tədris korpusu tikilib istifadəyə verilmişdir. Universitetin elmi kitabxanasında əsaslı təmir işləri başa çatmışdır.

Heydər Əliyev Fondunun vəsaiti hesabına internat tipli gimnaziya binası əsaslı təmir olunmuşdur. Lənkəran peşə liseyi üçün yeni tədris, laboratoriya və yataqxana binaları tikilir, 1076 yerlik şəhər 7 saylı tam orta məktəb əsaslı təmir edilir.

Azərbaycan Prezidentinin Sərəncamına uyğun olaraq 20 yerlik Alazəpin, 40 yerlik Köhnəgegir, 96 yerlik Jidi və 80 yerlik Türkəncil kənd ümumi orta məktəbləri üçün yeni modul tipli məktəb binaları, Şıxakəran kəndində 432 yerlik məktəb binası tikilmişdir.

## Masallı

Masallı respublikamızda böyük iqtisadi potensiala malik rayonlardan biridir. Dövlət Proqramında istehsal sahələrinin inkişaf etdirilməsi ilə bağlı rayonda bir sıra işlər görülmüşdür. Masallı şəhərində xalça fabrikinin tikintisi üçün torpaq sahəsi ayrılmış və sənədləşmə işlərinə başlanılmışdır.

Kiçik və orta bizneslə məşğul olan sahibkarların maarifləndirilməsi və onlara hüquqi yardımların göstərilməsi məqsədilə Sənaye Məhəlləsində yaradılmış KOB dostu ilə mütəmadi görüşlər təşkil edilir.

Çay plantasiyalarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir. "Azərsun Holdinq" şirkəti Kolatan kəndində 100 hektar sahədə çay plantasiyası salmışdır. 2019-cu ildən başlayaraq "AMAL" layihəsi çərçivəsində Ərkivan, Hişkədərə, Tüklə və Kolatan kəndlərində 15 hektar sahədə çay kolları əkilmişdir.

"Azərsu" ASC-nin sifarişi ilə "Kəndlərin içməli su ilə təchizatı" layihəsi çərçivəsində 20 kilometrə yaxın daşıyıcı su xətti çəkilmiş, 5 kənd içməli su ilə təmin edilmişdir.

Abonentlərin davamlı rabitə və sürətli internetlə təmin olunmasından ötrü yeni GPON layihəsinə start verilmişdir. Rayon mərkəzində magistral optik kabel çəkilişi tamamlanıb. Yaxın vaxtlarda abunəçilər müasir GPON texnologiyasının imkanlarından istifadə edəcəklər. Yolağac, Qızılavar, Bədəlan kəndlərində də GPON layihəsinin tətbiqinə başlanmışdır.




Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq Masallı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 37 sututarda təmir-bərpa işləri başa çatdırılıb. Əlavə olaraq daha 22 sututarda bu işlərin aparılması nəzərdə tutulub.

Heydər Əliyev Fondunun dəstəyilə Masallı şəhərində 140 yerlik 4 saylı uşaq bağçasının, Ərkivan qəsəbəsində 100 yerlik uşaq bağçasının tikintisinə başlanılmışdır.

## Astara

Dövlət Proqramının icrası nəticəsində son illər rayonda qeyri-neft sektorunun inkişafı sürətlənmiş, iqtisadiyyatın bütün sahələrində yeni uğurlar əldə olunmuş, əhalinin həyat səviyyəsi yüksəlmişdir.

Astarada aqrar sahənin inkişafına xüsusi qayğı göstərilir. Tərəvəzçilik, sitrusçuluq, çəltikçilik kənd təsərrüfatının aparıcı sahəsi kimi inkişaf etdirilir. İntensiv bağçılıq təsərrüfatlarında yerli meyvə sortları ilə yanaşı, yerli iqlimə uyğun daha məhsuldar xarici meyvə sortları da əkilib. Siyaku kəndində 14, Sərək kəndində 10, Sancərədi kəndində 19,35, Ərçivan qəsəbəsində 19 və Kijəbə qəsəbəsində 9 hektar sahədə intensiv metodlarla bağçılıq təsərrüfatları yaradılıb. Rayonda sitrus bağlarının ümumi sahəsi 4175 hektara çatdırılıb.

Əhalini elektrik enerjisi ilə fasiləsiz təmin etmək məqsədilə rayonun elektrik təsərrüfatında təmir işləri aparılmış, 3 ədəd yeni güc mərkəzi yaradılmış, 4 güclü transformator qoyulmuş, 9 nasaz transformator isə dəyişdirilmişdir. Rayonun ucqar dağlıq ərazisində yerləşən Hamoşam və Asxanakəran kəndlərinə 20 kilometr uzunluğunda yeni 10 kv-luq hava xətləri çəkilmişdir.

Rayonda 9747 abunəçiyə telefon, 6032 abunəçiyə internet xidməti göstərilir. "Aztelekom" MMC-nin Astara filialının xidməti ərazisində internet xidmətlərinin sürətinin artırılması və keyfiyyətinin yaxşılaşdırılması məqsədilə profilaktik təmir işləri aparılmış, 4123 abunəçiyə göstərilən rabitə xidmətinin keyfiyyəti yüksəldilmişdir.

Torpaqların su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya işləri davam etdirilir. Kijəbə qəsəbəsinin, Ojakəran və ətraf kəndlərinin həyətyanı və pay torpaq sahələrində çoxillik əkmələrin, sitrus və subtropik meyvə bağlarının suvarılmasını təmin etmək üçün müvafiq tədbirlər görülür. Şüvi kəndində və Kijəbə qəsəbəsində subartezian quyuları qazılaraq sakinlərin istifadəsinə verilib.

Sel sularından mühafizə tədbirlərini həyata keçirmək məqsədilə Pensər çayının Vaqo kəndindən keçən hissəsində 195 metr, Pensər kəndində 70 metr sahilbərkitmə işləri aparılmış, çayın Şiyəkəran kəndinin ərazisindən keçən hissəsində 120 metrlik sahil mühafizə bəndi tikilmişdir.

Torpaq sürüşməsi nəticəsində Astara şəhərində sakinlərə dəymiş ziyanın aradan qaldırılması məqsədilə 36 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir.

Yaponiya səfirliyi ilə əməkdaşlıq çərçivəsində Ojakəran və Hamoşam kəndlərində müasir layihə əsasında tibb məntəqələri inşa olunmuşdur. "AAAF Park Astara" layihəsi çərçivəsində 120 nəfərlik tamaşaçı tutumuna malik basketbol meydançası tikilib idmançıların və sakinlərin istifadəsinə verilmişdir.

Dövlət Proqramı çərçivəsində 360 şagird yerlik Burzubənd kənd tam orta məktəb binasının tikintisi başa çatmış, Qapıçıməhəllə kənd modul tipli ümumi orta, Lomin kənd modul tipli ibtidai məktəb üçün binalar tikilib istifadəyə verilmişdir. Şəvqo və Xıçaso kənd modul tipli ibtidai məktəblərdə əlavə tədris korpusları quraşdırılmışdır.

Astara respublikamızda həm də turizm diyarı kimi tanınır. Son illər sahibkarlar tərəfindən 10 hotel tipli villa, 6 kotec, Qamışoba kəndində 4 mərtəbəli hotel, 3 və 5 mərtəbəli hotel-restoran, 2 mərtəbəli qonaq evi, 5 ədəd kottec, Astara şəhərində "OKHATAN" MMC tərəfindən "Turizm" sahəsi, Şahağac kəndində "Yeni istirahət mərkəzi"nin tikintisi başa çatdırılmışdır.

## Lerik

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramı (2019-2023-cü illər üzrə) ölkənin hər yerində olduğu kimi, rayonumuzda da uğurla icra olunur, - deyə **Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov** bildirir.

Son illər rayonda yeni infrastruktur sahələr yaradılmış, təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa edilmiş, yeni avtomobil yolları, qaz və su xətləri çəkilmiş, elektrik təsərrüfatı yenilənmişdir. 10 mindən çox yeni iş yeri açılmışdır. Bütün sahələrdə inkişaf nəzərə çarpır.

Heydər Əliyev Fondunun dəstəyi ilə podratçı təşkilat tərəfindən Piran kəndinə 3,5 kilometrlik məsafədən su xətti çəkilib. Mastayıl-Lerik alternativ su xəttinin çəkilməsi başa çatdırılıb. 2018-ci ildən "Azərsu" ASC-nin sifarişi ilə Molalan, Sors, Şingədulan və Geskon kəndlərinə yeni su xətlərinin çəkilişinə başlanılıb.

Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) təşkilatı ilə birgə Siyov kəndinə 2,8 kilometr, Züvüç kəndinə isə 7,8 kilometr məsafədən su xətləri çəkilib. Suyun evlərə çatdırılması üçün 36 tonluq anbarlar inşa edilib. Meliorasiya və Su Təsərrüfatı ASC-nin xətti ilə Zövnə, Zərikümaco və Kələxan kəndlərində artezian quyuları qazılmışdır.

Yay aylarında rayonun 33 yaşayış məntəqəsində artezian quyularının qazılması vacib məsələ kimi qarşıda durur.

Son illər 56 kilometrlik Lənkəran-Lerik və 22 kilometrlik Lerik-Şinəband-Orand-Nuravud-Zardəbərə avtomobil yolu əsaslı şəkildə yenidən inşa edilib. Blaband-Monidigah və Lüləkəran avtomobil yoluna isti asfalt döşənib.

Lerik-Masallı, Lerik-Yardımlı rayonlararası, Əliabad-Kirəvud-Nücü-Vamazğon, Blaband-Çayrud-Tikəband, 40-cı kilometr-Əliabad, Piran-Veri Əliabadı-Veri, Lerik-Mastayıl-Laman, Nisli-Rvarud-Rəzgov və digər kəndara avtomobil yollarının yenidən qurulması ilə bağlı sənədlər hazırlanaraq müvafiq dövlət orqanlarına təqdim edilmişdir. Bu yolların tikintisi yeni infrastrukturun qurulmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, rifah halının yaxşılaşmasına şərait yaradacaqdır.

Lerik şəhərində 4 mərtəbəli, 48 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 40-dan yuxarı fərdi yaşayış evinin tikintisinə başlanılmış, bir çox tikintilərdə son tamamlanma işləri aparılır.

Heydər Əliyev Fondunun sifarişi ilə Piran kəndində 75 yerlik uşaq bağçası tikilib istifadəyə verilmişdir.

## Yardımlı

Rayonun iqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. Şəxsi və fermer təsərrüfatları taxılçılıq, kartofçuluq, tərəvəzçilik, arıçılıq, tütünçülük, bostan məhsullarının istehsalı ilə məşğul olur. Rentabelli sahə kimi tütünçülüyün inkişafına xüsusi diqqət yetirilir. Keçən il 20 hektar sahədə tütün plantasiyaları salınmış və 23,8 sentner quru tütün tədarük olunmuşdur.

Rayonda 7023 arı ailəsi bəslənilir. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri arıçılarla maarifləndirici tədbirlər keçirir, onların problemlərinin həllinə köməklik göstərirlər. Lakin rayonda kənd təsərrüfatı məhsullarının istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının müəyyən problemləri mövcuddur. Bunlar həll olunarsa, aqrar sahənin inkişafında artıma, yüksəlişə nail olmaq mümkündür.

51 nömrəli Yol İstismarı MMC 336 kilometr uzunluğunda respublika və yerli əhəmiyyətli yolun saxlanması və təmiri işlərini həyata keçirir. 2021-ci ildə rayonun ərazisindən keçən respublika əhəmiyyətli avtomobil yollarında 451,38 min manatlıq, yerli əhəmiyyətli yollarda 855, 02 min manatlıq cari təmir işləri görülüb.

Təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər davam etdirilir. Ötən dövrdə Yardımlı şəhər 4 nömrəli tam orta məktəbi üçün təzə korpus, Çanaxbulaq, Peştəsər, Arvana və Bərcan kəndlərində isə modul tipli yeni məktəb binaları tikilib. Dəlləkli kənd ümumi orta məktəbin binası əsaslı təmir edilib.




Dövlət Proqramı çərçivəsində Lənkəran-Astara iqtisadi rayonunda görülmüş işlər əhalinin sabaha, işıqlı və xoşbəxt gələcəyə inamını artırır. Əminliklə demək olar ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qarşıya qoyulmuş vəzifələrin icrası regionlarda dayanıqlı inkişafın təmin olunmasına, bölgələrdə yaşayış üçün rahat şəraitin yaradılmasına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və həyat səviyyəsinin daha da yüksəldilməsinə öz layiqli töhfələrini verəcəkdir.

## Cəlilabad

Həmsöhbətimiz **Cəlilabad Rayon Statistika İdarəsinin rəisi Arif Nəcəfov** Azərbaycan Prezidenti cənab İlham Əliyevin rayona misilsiz qayğısı sayəsində iqtisadiyyat, sosial və mədəni sahələrdə qazanılmış uğurlardan söhbət açaraq dedi:

- Kənd təsərrüfatı rayonda iqtisadiyyatın aparıcı sahəsidir. Dövlət Proqramında aqrar sahədə nəzərdə tutulmuş tədbirlərin icrası daim diqqət mərkəzindədir. Proqrama uyğun olaraq əkin sahələri ildən-ilə genişləndirilir, məhsul istehaslı artırılır. Təkcə keçən il rayonun təsərrüfatlarında 161590 ton buğda,12584 ton arpa, 8279 ton venəmir, 157420 ton kartof, 1295 ton qarğıdalı, 1695 ton noxud, 360 ton mərci, 161 ton şəkər çuğunduru, 22912 ton üzüm, 12440 ton çiyələk istehsal olunmuşdur. Bu, əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Cari ilin məhsulu üçün payızda 56500 hektarda buğda, 5200 hektarda arpa, 4870 hektarda vələmir əkilib.

Yeni yaradılan təsərrüfat subyektləri aqrar sahənin inkişafına layiqli töhfələr verir. Son illər "Avanqard" MMC-nin nəzdində "Günəşli" aqropark fəaliyyətə başlamış, ilkin mərhələdə buraya 587 baş iribuynuzlu qaramal gətirilmişdir. Aqroparkda 180 baş heyvan və yeni doğulmuş buzovlar üçün tövlə binalarının tikintisi başa çatdırılıb.

Aqroparkın 2110 hektar əkin sahəsinin 1200 hektarında pilot suvarma sistemi quraşdırılıb. Müəssisədə süd istehsalının artırılması və emal sənayesinin inkişaf etdirilməsi istiqamətində tədbirlər görülür.

2021-ci ilin dekabr ayından uzunluğu 36,2 kilometr olan Təklə-Abazallı, Təklə-Şorbaçı-Mədətli-Novruzallı-Şötüklü-Bayxanlı-Məlikqasımlı, Şötüklü-Dostallı-Məşədilər-Məmmədrzalı-Şorbaçı, Şiləvəngə-Adnalı-Bədirli kəndarası avtomobil yollarının əsaslı şəkildə təmirinə başlanılıb.

Fasiləsiz və keyfiyyətli elektrik enerjisi verilişi üçün qurulmuş 110 min kv-luq yarımstansiyanın gücü 51 MVA-dan 63 MVA-ya çatdırılıb. Şəbəkənin daxili imkanları hesabına 35/10 kv-luq Calayır yarımstansiyası yenidən qurulub.

Ötən il rayonda 39 ədəd transformator təmir olunub, 464 elektrik dayağı dəyişdirilib, 14 yaşayış məntəqəsində 25130 metr uzunluğunda yararsız elektrik xətləri yenilənib.

Yaşayış məntəqələrinə təbii qaz verilişini yaxşılaşdırmaq məqsədilə xətlərdə təmir-bərpa işləri görülüb. Cəlilabad şəhərində 3222 metr, Uzuntəpə kəndində 889 metr uzunluğunda yeni qaz xəttləri çəkilərək sakinlərin istifadəsinə verilib. Qazın keyfiyyətli, dayanıqlı və təhlükəsiz şəkildə abonentlərə çatdırılması üçün yeni qaz tənzimləyicilər quraşdırılıb.

Əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması sahəsində işlər davam etdirilir. Cəlilabad şəhərinin ərazisində, Privolnoye və Uzuntəpə kəndlərində köhnəlib sıradan çıxmış əsas və köməkçi su boruları yeniləri ilə əvəz edilib, 32 mənzilə su xətti çəkilib.

Əhaliyə göstərilən rabitə xidmətinin həcmi və keyfiyyəti getdikcə yaxşılaşır. Alar, Əliqasımlı, Qarazəncir kənd elektron ATS-lərin nömrə tutumu artırılıb. Rəqəmsal şəbəkənin yaradılması məqsədilə müasir 24 portluq yeni DSLAM avadanlığı quraşdırılıb.

Vətəndaşların internetə tələbatını nəzərə alaraq Cəlilabad şəhərində 448 port, kəndlərdə isə 64 port internet avadanlığı quraşdırılıb.

Son illər Cəlilabad şəhərində 12 çoxmənzilli binanda təmir işləri başa çatdırılıb. Şəhərin park və xiyabanlarında təmir, abadlıq işləri görülür. Akademik Zərifə Əliyeva küçəsində yeni istirahət parkı tikilərək sakinlərin istifadəsinə verilib. Heydər Əliyev prospektində və Qurtuluş küçəsində yol kənarlarında həmişəyaşıl ağaclar, gül kolları əkilib. Uzunluğu 9,4 kilometr olan Cəlilabad-Uzuntəpə avtomobil yolu genişləndirilib, yol boyu müasir işıq dirəkləri quraşdırılıb və yaşıllıqlar salınıb.

Rayon Məşğulluq Mərkəzi tərəfindən işsiz, ünvanlı sosial yardım alan, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərdən 133 nəfər özünüməşğulluq proqramına cəlb edilib.

Ötən dövrdə təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlər davam etdirilib. Cəlilabad şəhərinin yeni yaşayış massivində 624 şagird, Muğan kəndində 432 şagird yerlik tam orta məktəblər üçün təzə binalar tikilib.

Rayonun Uzuntəpə kəndində "ASAN xidmət" mərkəzi üçün yeni, üçmərtəbəli bina inşa edilir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**







